# Uşaqlarda düzgün tələffüzün tərbiyə edilməsi

**Yeganə Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Məktəbəqədər təhsilin pedaqogikası və*
*metodikası kafedrasının müəllimi*
**E-mail:** yeganememmedova.doc@gmail.com

**Rəyçilər:** ped.ü.f. d., dos. S.Ə. Cəmilzadə,
ped.ü.f.d., dos. Ş.A. Baxışova

**Açar sözlər:** nitq səsləri, düzgün tələffüz, artikulyasiya aparatı, düzgün diksiya, nitqdə ifadəliliy

**Ключевые слова:** звуки речи, правильное произношение, артикуляционный аппарат, правильная артикуляция, выражение речи

**Key words:** speech sounds, correct pronunciation, articulation apparatus, proper articulation, expression of speech

İnsan cəmiyyəti yarandığı dövrdən yenicə doğulmuş uşağa danışıq nitqinin öyrədilməsini həyati bir zərurət olmuşdur. Kommunikativ vasitələr içərisində mühüm yeri məhz səslənən nitqin öyrədilməsi tutmuşdur. Bu gün elm və texnikanın sürətlə inkişaf etdiyi bir dövrdə insanlar arasında ünsiyyət daha əsaslı xarakter kəsb edir. Həyatımızın bütün sahələrində mükəmməl nitqə yiyələnmək tövsiyə edilir.

Lap erkən yaşlardan nitq ünsiyyət vasitəsi kimi mühüm əhəmiyyət kəsb edir. Uşaq beşikdə ikən ana dilində eşitdiyi laylalardan aldığı təəssürat həyatı boyu onu müşayiət edir. Ona görə də uşağın ana dilinə dərindən yiyələnməsi onun hərtərəfli inkişafında mühüm əhəmiyyət kəsb edir. Ana dili vasitəsilə şifahi xalq ədəbiyyatının gözəl nümunələri onların bədii zövqunün tərbiyə edilməsində və həyatı daha dərindən dərk etməkdə, onun qavramasında mühüm vasitədir.

Bu dövrdə nitq inkişafı üzrə işlər əsasən ədəbi tələffüz vərdişlərinin inkişafına xidmət edir. Uşaqların nitqinin normal inkişaf etməsi onların ədəbi dilin normalarına nə dərəcədə yiyələnməsindən çox asılıdır. Bu dövrdə başlıca ünsiyyət forması şifahi nitq olduğundan onun təmizliyinə, düzgünlüyünə, vahid normalar əsasında qurulmasına fikir verilməlidir.

Uşaq iki ayından başlayaraq aydın olmayan səslər çıxarır. Bu səslər a, o, u səslərinə bənzəyir. Tədricən uşağın tələffüzü və nitq orqanları inkişaf edir, b, m, n səslərini tələffüz etməyə səy göstərir, bəzən bunlardan sanki heca düzəltməyə və onları təkrarlamaq istəyir. Uşağın nitqi inkişaf edir, o səsləri aydın qavramağa, sözün tonunu, intonasiyasını ayırd etməyə başlayır. Uşağın şifahi nitqi əsil mənada bir yaşından etibarən inkişafa başlayır və bu proses təxminən üç yaşa kimi davam edir. Uşaqlar bu yaş dövründə nəinki ayrı-ayrı səsləri düzgün tələffüz etməyi öyrənir, həm də səsləri, sözləri, hecaları müxtəlif intonasiya ilə deməyi bacarırlar.

Nitq səslərinin tələffüzü düzgün nitqin təmin edilməsinin mühüm şərtlərindən biridir. Bunun üçün tərbiyəçi-müəllimlər ilk gündən uşaqların fonematik qabiliyyətinin inkişafı qayğısına qalmalı, onlara ana dilinin bütün səslərini düzgün tələffüz etməyi, eyni zamanda səslənməsinə görə yaxın olan səsləri fərqləndirə bilmələri üzrə ardıcıl iş aparmalıdırlar.

Ədəbi tələffüz vərdişlərinin inkişafı üzrə işlər dedikdə, əsasən, orfoepiya üzrə aparılan

işlər nəzərdə tutulur. Bu dövrdə uşaqların nitq inkişafı üzrə işini planlı təşkil etmək üçün hər şeydən əvvəl onların nitq xüsusiyyətlərinə bələd olmaq zəruridir. Kiçik yaşlı uşaqda nitq cihazı hələ tamamilə inkişaf etməmişdir. Bu da əzələlərin zəifliyi, əsəb impulslarının kafi qədər qüvvəyə malik olmaması və tənəffüsün zəifliyi ilə müşayiət olunur. Beş yaşlı uşağın nitq cihazı gözə çarpacaq dərəcədə mükəmməlləşir, nitq hərəkətlərində uyğunluq formalaşır və tənəffüs dərinləşir. Buna görə də bu dövrdə səslərin tələffüzü yaxşılaşır, uşaqlar onların çox hissəsini təmiz və düzgün tələffüz edir, ancaq bəzi nöqsanlar hələ də özünü göstərir.

Bəzi uşaqlar bağçaya gələnədək sözdə ayrı-ayrı səsləri və hecaları buraxır, onların yerlərini dəyişir, qeyri-səlist tələffüz edirlər. Belə nöqsanlar ilk gündən uşağın şəxsiyyətində öz ifadəsini tapır. Onlar get-gedə qaradinməz, sərt, hövsələsiz olur, heç nə ilə maraqlanmırlar, əqli cəhətdən geriləyirlər. Bu vərdişlərin aradan qaldırılması üçün xüsusi məşğələlər təşkil etmək və onları getdikcə mürəkkəbləşdirmək lazımdır. M.A.Rıbnikova yazmışdır ki, inkişaf etməmiş, qeyri-dəqiq nitq səslərinin qarışdırılması aydın olmayan diksiya, sait və samitlərin kifayət qədər ayrılmaması ilə fərqlənir. Nitq üzərində iş fonetik dəqiqliyin inkişafını öz qarşısında bir vəzifə kimi qoymalıdır.

Nitq səslərinin aydın tələffüzü onları əmələ gətirən artikulyasiya aparatının vəziyyətindən və hərəkətindən asılıdır. Bu dövrdə artikulyasiya aparatındakı bəzi pozuntular sonralar da davam edir, lakin bu və ya digər sözü düzgün tələffüz edə bilməyən uşaq onun səs obrazını bilir və başqalarının nitqində həmin sözləri düzgün səsləndiyini hiss edir. Nitq səslərinin artikulyasiyasının mənimsənilməsi çətin prosesdir. Məktəbəqədər yaş dövrünün sonunda uşaqların bir qismi orta damaq samitlərini (r, l, ş, j), bəzən də arxa damaq samitlərini (q, k, x) tələffüz etməkdə çətinlik çəkirlər.

Psixoloji tədqiqatlar əsasında uşaqlar üçün hansı səslərin çətin tələffüz olduğu müəyyənləşdirilmişdir. Bu zaman uşaqların b-p, ş-s, c-ç, k-x səslərini qarışdırdığını nəzərə alaraq - əz-əs, cib-cip, boz-poz, şal-sal, səhər-şəhər, ac-aç və s. kimi sözləri onlara tələffüz etdirmək və səsin hansı səslə əvəz olunduğunu deməyi tələb etmək lazımdır.

Nitq səslərinin tələffüzü uşaqların düzgün diksiyaya yiyələnmələrini təmin edir. Diksiya nitqin mühüm keyfiyyətlərindən biridir. Hər bir sözün aydın, dəqiq tələffüz olunmasını tələb edir. Bəzən dodaqlar və dilin ləng hərəkət etməsi, alt çənənin çevik olmaması, eşitmə bacarığının inkişaf etməməsi, diqqətin davamsızlığı, uşağın öz səsini idarə edə bilməməsi üzündən uşaqların əksəriyyəti sözün sonunu tələffüz etmir, aydın danışa bilmirlər. Diksiyanın aydınlığı ilk növbədə saitlərin düzgün tələffüzündən, sonra isə samitlərin tələffüzü prosesində nitq hərəkəti aparatının fəaliyyətinin dəqiq əlaqələndirilməsindən asılıdır. Bu dövrdə saitlərin və samitlərin tələffüzü ilə bağlı qaydalar ayrıca öyrədilməlidir. Saitlərin tələffüzü ilə bağlı qaydaların bir qismi sait səslərin kəmiyyət dəyişikliklərinə aiddir. Belə ki, bəzi səslər müəyyən məqamda adi normadan uzun, bəzisi isə adi normadan qısa deyilir.

Məsələn: *Saitlərin uzanması:* a- a:lim, na:mus;
o- no:ruz, do:şan, do:ğa;
ə- ə:la, tə:til, mə:na;
i- Si:ma, xəzi:nə, Səki:nə;
ö- nö:bə, Şö:lə, Tö:rə;

*Saitlərin* qısalması: ı- qapı*lar, qı*sa, bı*çaq;
o- qo*ca, qo*çaq, to*xum;
u- qu*laq, su*yuq, bu*ruq;
ə- mək*təb, pə*yə ,lə*kə;
e- ge*cə, ge*niş, ye*kə;

i - ki*sə, kəsi*k;
ö- kö*rük, kö* tük, kö mək;
ü- kü*lək, tü*fəng, bü*töv;

Bu kimi kəmiyyət fərqlərini öyrətmək nisbətən çətin olduğundan akustik texniki vasitələrin imkanlarından istifadə olunması vacibdir.

Samitlərin tələffüzü ilə bağlı dəyişikliklərin, demək olar ki, hamısı keyfiyyət dəyişikliklərindən ibarətdir. Bu yaş dövründə uşaqlara öyrədilməsi zəruri olan samitlərin orfoepik normalarını nəzərdən keçirək:

- Cingiltili samitlə bitən çoxhecalı sözlərdən sonra samitlə başlanan şəkilçi gəldikdə sözün sonundakı samit karlaşır. Kitab-kitapsız, polad-polatdan, ağac-ağaşdələn və s.
- Söz ortasında yanaşı gələn kar samitlərdən ikincisi cingiltiləşir. Səttar-Sətdar, dəftər-dəfdər, səkiz- əkgiz, bitki-bitgi və s.
- *Q* samiti sözdəki yerindən aslı olaraq dəyişir: saqqal-sakqal, nöqtə-nöktə, otaq-otaxda və s.
- *K* samiti ilə bitən çoxhecalı sözlər ayrılıqda tələffüz edildikdə və onlardan sonra samitlə başlanan şəkiilçi gəldikdə *x*` kimi tələffüz edilir: çiçək- çiçəx; çörək- çörəx, külək- küləx`və s.
- Söz sonunda *r* səsi çox zəif tələffüz olunur. Bəzən tamam itir: gəlibdir-gəlibdi, mənimdir-mənimdi, aparıbdır-aparıbdı, dəmirdir-dəmirdi və s.
- Sözlərin axırında *ç* samitindən sonra *t, d, s, z, n* gəldikdə *ç* samiti *ş* kimi tələffüz olunur: qaçdı-qaşdı, açsın-assın, heçnə - heş-nə, heç zad-heş zad və s.
- Sözün birinci hecasındakı *c* samitindən sonra dil-diş samiti gəldikdə, həmçinin axırı c samiti ilə bitən təkhecalı sözlərdə *c* samiti *j* samiti kimi tələffüz edilir: gücsüz-güjsüz, əcdad-əjdad və s.
- Axırı *şt, st* birləşmələrilə bitən sözlərdən sonra samitlə başlanan şəkilçi və ya söz gəldikdə *t* samiti düşür: güzəşt- güzəş, dostlar-dosdar və s.
- Bir çox sözlərdə *nb* birləşməsi *mb* kimi tələffüz olunur: şənbə-şəmbə, sünbül-sümbül, zanbaq-zambaq, zənbil-zəmbil, günbəz-gümbəz və s. [3, s. 45].

Bu keyfiyyət dəyişikliklərinin xüsusiyyətləri dəqiq öyrədilməlidir. Əks təqdirdə, uşaq ünsiyyət tələb olunmadığı şəraitdə də bir səsi başqası ilə əvəz edə bilər ki, bu da tələffüzə zərər gətirər.

İstər saitlərin, istərsə də samitlərin tələffüzü ilə əlaqədar qaydaların proqram və dərsliyin tələbi ilə necə öyrədilməsindən asılı olmayaraq sait və samitlərin tədrisindən sonra orfoepik qaydalar uşaqların qarşısında sistem halında müntəzəm nümayiş etdirilməlidir. Yaxşı olar ki, sait və samitlərin tələffüzü ilə əlaqədar qaydalar cədvəl şəkilində əyani vasitə kimi Azərbaycan dili məşğələlərində uşaqların gözü qabağında asılmış olsun.

Uşaqları səs və sözləri düzgün tələffüz etməyə alışdırmaq üçün tərbiyəçi-müəllim müntəzəm olaraq səsləri əks etdirən, eşitməni inkişaf etdirən çalışmalarla iş vasitəsilə bu prosesi möhkəmləndirməlidir. Bu zaman çalışmaların aşağıdakı formada aparılması məsləhət görülür:

- Uşaqların dinləmə və eşitmə qabiliyyətinin inkişaf etdirilməsi üzrə;
- Uşaqların yoldaşlarının tələffüzünə nəzarət və düzəliş etmələri ilə;
- Uşaqlar üçün radio, televiziya verilişlərini dinlədikdən sonra ədəbi tələffüz baxımından sözlərin təhlil edilməsi ilə;
- Ədəbi parçaların orfoepik normalara uyğun oxunması ilə;
- Uşaqlara əşya şəkilləri verib, adlarını deməyi tələb etmək və s.

Uşaqların dinləmə qabiliyyətini inkişaf etdirmək üzrə işə 10 dəqiqə ardıcıl qulaq asmaq vərdişləri yaratmaqdan başlamaq lazımdır. Tədricən oxunan materialın həcmi artırılmalı və uşağın dinləmə müddəti 20-25 dəqiqəyə çatdırılmalıdır. Nitqin düzgün eşidilməsi üçün uşağa hər şeydən əvvəl aydın tələffüz nümunələri verilməlidir. Eşitmə qabiliyyətinin inkişaf etdirilməsi üçün monoloji nitq, onun ifadəliliyi təmin edilməlidir. Bu dövrdə uşaqlarla iki istiqamətdə iş aparılır:

1. Onun nitq - hərəki aparatının, fəal nitqin səs cəhətinin inkişafı.
2. Eşitmə diqqətinin və nitqi eşitmənin inkişafı [2,s.19].

Uşaqlara ilk növbədə deyilişi və yazılışı arasında fərq olmayan sözləri düzgün tələffüz etməyi öyrətmək lazımdır. Müəyyən vaxtdan sonra tədricən asan və dilimizdə çox işlənən deyilişi ilə yazılışı arasında fərq olan sözlərin öyrədilməsi vacibdir. Bu zaman düzgün səs tələffüzünü öyrətmək məqsədilə onlara heyvan, quş, həşərat, təbiət hadisələrinin bir çoxunun səslərinin yamsılanmasını həyata keçirməklə düzgün səs tələffüzünün öyrədilməsi əsas tələblərdən biridir. Məsələn: ş-ş-ş-suyun şırıltısı: z-z-z- milçəyin vızıltısı: j-j-j-may böcəyinin səsi: r-r-r- mühərrikin səsi və s.

Sonralar sözün əvvəlində, ortasında və sonunda belə səsləri uzatmaqla ayırmaq mümkündür: cır-r-r-r; mə-ə-ə-ə; z-z-z-zal; ş-ş-ş-şar; f-f-f-fil; və s. Bu zaman uşağın tələffüzü və nitq orqanları tədricən inkişaf edir və uşaq r, z, ş, f səslərini düzgün tələffüz etməyə, bəzən bunları hecada işlətməyi öyrənir. Məktəbəqədər yaş dövrünün sonunda uşaqlarda sözləri düzgün tələffüz etmə bacarığı ilə yanaşı səsləri eşitmə xüsusiyyəti də inkişaf edir. O, artıq səsləri aydın qavramağa, deyilmiş sözlərin tonunu, intonasiyasını düzgün qavramağa başlayır.

Məktəbəqədər yaşlı uşaqlarda düzgün tələffüz vərdişlərini inkişaf etdirmək məqsədilə sözdə hərfin yerini dəyişməsi ilə əlaqədar didaktik oyunda keçirmək mümkündür. Bu oyunları təkhecalı sözün əvvəlində, ortasında, axırında hərfi digəri ilə əvəz etməklə keçirmək mümkündür. Hərflər elə əvəzlənməlidir ki, yeni məna verən söz alınsın.

*Əvvəldə*: tar – dar, nar, şar, yar, var, qar;
*Ortada*: tar- tor, tur, tir, tər;
*Axırda*: tar – tay, tax, tam, tap, tab və s.

Sonda sözün əvvəlinə və ya axırına səs əlavə etməklə yeni sözün düzəldilməsi üzrə məşq etdirilməsi məqsədəuyğundur.

*Əvvəlində*: al-şal, sal, nal, xal, val, bal, çal, zal, lal, dal, yal, kal.
ay-yay, say,tay, may, çay, zay, lay, hay, pay.
*Axırında:* yu-yun, yum, yan, yar, yaş, yat, yad və s.
Ye - yem, yel, yet, yer və s.
su - sus, sup və s.

Hərflərin yerini dəyişməklə yeni sözlərin alınması da böyük maraqla qarşılanır: yat-tay, daş-şad, ulduz-duzlu, sap-pas, lək-kəl və s.

Nitq səslərinin düzgün tələffüz olunmasını təmin etmək məqsədilə uşaqlar çox danışdırılmalıdırlar. Belə şəraitdə eyni səsin təkrarına imkan verən yanıltmaclar, şeirlər, tapmacalar xüsusi əhəmiyyət kəsb edir. Bəzən uşaq səsləri düzgün tələffüz etmədikdə bunun hansı halda yanlış formalaşması düzəliş tələb edən tələffüzlə izah olunduğunu müəyyənləşdirmək çətin olur. Birinci halda məsuliyyət valideynin üzərinə düşür. Bəzən uşağın şirin danışmasından xoşu gələn gənc valideynlər yanlış olan tələffüzünü daha da möhkəmləndirirlər. İkinci halda isə vaxtında ixtisaslı loqopedə müraciət etmək lazımdır. Səsin tələffüzü üzrə düzəlişə ehtiyatla yanaşmaq lazımdır. Səsin düzgün tələffüz nümunəsi verilərkən dilin, dodaqların aldıqları, forma əyani göstərilməlidir.

Adətən məktəbəqədər yaşlı uşaqların əksəriyyəti sürətlə danışırlar. Onların danışığındakı tələskənlik tələffüzə mənfi təsir edir, bəzən səslərin, hecaların, hətta sözlərin düşməsi ilə nəticələnir. Bununla da nitqin səlisliyi və dəqiqliyi pozulur. Uşaqlara öz səsinin gücünü onu əhatə edən şəraitlə uzlaşdırmağı, onu qorumağı öyrətmək lazımdır. Səslənən nitqin ən mühüm keyfiyyəti onun ifadəliliyidir. Tərbiyəçi-müəllim uşaqlar üçün xarakterik olan təbii ifadəliliyi inkişaf etdirməlidir. Uşağa səsin məzmununa uyğun sürət seçməyi, başqasının fikrini düzgün verməyi öyrətmək lazımdır. Bu zaman uşağın nitqi ifadəli olmalı, fikri və hissləri üzündə və jestlərində əks olunmalıdır.

Nitqin anlaşıqlı olmasında intonasiyanın mühüm rolu vardır. Səslənən nitqin ifadə vasitələrinin kompleksi olan intonasiyanın melodika, ritm, məntiqi vurğu, temp, tembr, fasilə (pauza) kimi tərkib hissələrinin düzgün inkişafının bu dövrdə təmin edilməsi əsas şərtlərdən biridir.

İntonasiya ifadəliliyinin belə vasitələri nitqdə üç mühüm vəzifəyə xidmət edir:

- ✓ adicə məlumatın verilməsinə (semantik vəzifə);
- ✓ fikrin məhz nə ilə bağlı olduğundan dəqiq nəzərə çatdırılmasına (məntiqi vəzifə);
- ✓ söylənilən fikirdə sevinc, kədər, təəccüb, təəssüf, qürur və s. bildirilməsinə və s. (emosional vəzifə)

İntonasiya ifadəliliyinin belə vasitələri ünsiyyət prosesində fikrin emosional çatdırmasını təmin edir, ona əlavə məna verir [1, s. 67].

Nitqdə ifadəliliyin düzgün inkişafı kiçik qrupdan başlayaraq məktəbəqədər yaş dövrünün sonuna qədər müntəzəm davam etdirilməlidir. Hər bir məşğələdə şifahi nitqin inkişafı üzrə məşqlər aparılmalı, söz və ifadələrin xorla təkrarlanması təşkil edilməlidir. Məktəbə gələnədək uşaq düzgün fonematik eşitmə bacarığına yiyələnməli, dilimizin bütün səslərini aydın tələffüz etməyi, sözdə səslərin, hərflərin sayını və sırasını müəyyənləşdirməyi, bir səsə görə fərqlənən sözləri tapmağı bacarmalıdır. Uşaqların bu dövrdə nitq səslərini necə tələffüz etməsindən asılı olaraq rabitəli nitqi onun emosional rəngi yaranır. Eyni zamanda uşaqların səsləri düzgün tələffüz edə bilməsi savad təlimini yaxşı mənimsənilməsinə şərait yaradır.

**Məqalənin aktuallığı.** İnsan hər şeyi öyrənməkdə və tərbiyə almaqda, başlıca olaraq, sözdən istifadə etdiyi üçün dil özünü təlim və tərbiyə üzrə işin mühüm vasitəsi kimi göstərir. Uşağın təlim-tərbiyəsinin mahiyyəti, onun təfəkkürünün inkişafı, şəxsiyyətinin formalaşması, ana dilinə necə yiyələnməsindən asılıdır. Məktəbəqədər yaş dövründə uşaqlarda düzgün tələffüz vərdişlərinin inkişaf etdirilməsi üzrə işlərin təşkili bu və ya digər şəkildə tədqiq edilsə də, bu sahədə vərdişlərin inkişaf etdirilməsi üzrə işlərin təşkili öyrənilməmiş, ümumiyyətlə açıq qalmışdır. Apardığımız tədqiqat bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Məqalənin elmi yeniliyi.** Bu məqalədə ilk dəfə olaraq məktəbəqədər yaş dövründə nitq inkişafının ən mühüm sahələrindən biri olan ədəbi tələffüz vərdişlərinin məzmunu araşdırılmış, uşaq bağçalarında uşaqlarda düzgün tələffüzün tərbiyə edilməsinin əhəmiyyəti və həlli yolları göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən təkliflər və nəticələr, məktəbəqədər yaş dövründə uşaqların nitq inkişafı üzrə işin təşkilini müvəffəqiyyətlə həyata keçirilməsini təşkil etmək, nitqin inkişaf etdirilməsi zamanı ədəbi tələffüz vərdişlərinin düzgün tərbiyə edilməsinə köməklik göstərməkdir. Bu məlumatlar vasitəsilə istər tərbiyəçilər, istərsə də valideynlər nitq inkişafı üzrə işin təşkilini müvəffəqiyyətlə həyata keçirilməsini təşkil edə bilər.

## Ədəbiyyat

1. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası (dərslik). Bakı: Nasir, 2003.
2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı, Maarif, 2002.
3. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı, 1997.
4. Quliyev S., Balıyev H. Azərbaycan dili təlimi və nitq inkişafı metodikası. Bakı, 1994.
5. Dəmirçizadə Ə.M. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı, 1970.
6. Xalıqov F.R., Hacıyeva İ.H. Nitqdə ifadəlilik yaradan vasitələrin öyrədilməsi. Bakı, Müəllim, 2012.

**Е. Мамедова**

## Воспитание правильного произношения у детей

## Резюме

Нормальное развитие детской речи во многом зависит от того, насколько они привыкли к литературным нормам языка. В этот период основную форму общения следует рассматривать как словесную, поэтому следует понимать, что она основана на чистоте, точности и однородности. В зависимости от того, как дети произносят голоса в эту эпоху, эмоционально возникает коммуникативная речь. В то же время способность детей правильно произносить звуки создает условия для хорошего обучение грамоте.

**Y. Mammadova**

## Educating correct pronunciation in children

## Summary

The normal development of children's speech depends largely on how accustomed they are to the literary norms of the language. During this period, the main form of communication should be considered as verbal, therefore it should be understood that it is based on purity, accuracy and homogeneity. Depending on how children pronounce voices in this era, communicative speech emotionally arises. At the same time, the ability of children to correctly pronounce sounds creates conditions for good literacy training.

**Redaksiyaya daxil olub:** 21.01.2019

# Serebral iflicli uşaqlarda təzahür edən hərəki pozulmaların xüsusiyyətləri

**Səlbi Abasova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**E-mail:** s-asadzade@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., dos. T.H. Ağayeva,
ped.ü.f.d., dos. S.R. Aslanova

**Açar sözlər:** sensor proseslər, koqnitiv proseslər, intellektual proseslər, psixomotor funksiyalar, hərəkət pozulmaları, iradi hərəkətlər, əzələ tonusu

**Ключевые слова:** сенсорные процессы, когнитивные процессы, интеллектуальные процессы, психомоторные функции, двигательные расстройства, волевые движения, мышечный тонус

**Key words:** sensory processes, cognitive processes, intellectual processes, psychomotor functions, motor disorders, volitional movements, muscle tone

Yerli və xarici klinistlərin tədqiqatlarında serebral iflicli uşaqlarda xüsusilə də postnatal ontogenezin erkən mərhələlərində psixomotor funksiyaların inkişafının ləngiməsi qeyd edilir.

USİ zamanı sensor, koqnitiv və intellektual proseslərin inkişaf xüsusiyyətlərinin xüsusi psixoloji tədqiqi ilə bir sıra müəlliflər idrak proseslərinin pozulmasını motorikanın inkişafsızlığı ilə əlaqələndirirlər. Tədqiqatlarda qeyd olunur ki, USİ zamanı əşyaların qavranılmasının, vizual-məkani bələdləşmənin pozulması hərəki çatışmazlıq ilə şərtlənir. Qüsurun ağırlıq dərəcəsi yüksək olduqca bu pozulmalar daha bariz ifadə olunur.

USİ-li uşaqların koqnitiv inkişafına təsir edən 3 amil ayırd edilir:

— onlarda sensor və koqnitiv inkişaf arasında əlaqə fərqlidir;

— onların tədqiqat imkanları, eləcə də inkişaf səviyyələrinə görə informasiyanın qəbulu, qorunması və bərpası daha məhduddur;

— uzun müddətli xəstəxana müalicəsi, valideynlərlə çətin münasibətlər, ətrafdakılara inamsız münasibət onların emosional-motivasiya sferalarına mənfi təsir edir.

USİ zamanı uşağın psixi inkişafının xüsusiliyini müəyyən edən aparıcı qüsur hərəkət pozulmaları olduğundan bu patologiyanın hərəki sferasının formalaşma xüsusiyyətləri nəzərə alınmalıdır.

USİ zamanı hərəki pozulmaların əsas xüsusiyyətləri odur ki, bu pozulmalar anadangəlmə mövcud olur, sensor pozulmalarla, xüsusilə də şəxsi hərəkətlərin hissiyyatının inkişafsızlığı ilə sıx əlaqədardır. USİ-li uşaqların hərəki pozulmaları öz özlüyündə motor inkişafın xüsusi pozulmaları ilə təzahür edir. Bu da müvafiq korreksiya prosesi olmadığı təqdirdə uşağın bütövlükdə sinir-psixi funksiyalarının formalaşmasına mənfi təsir etmiş olur.

USİ-li uşaqlarda bütün hərəki funksiyaların formalaşması ya ləngiyir, ya da tamamilə pozulmuş olur: başı saxlamaq, oturmaq, dayanmaq, gəzmək, manipulyativ fəaliyyət. Hərəki funksiyaların inkişafında böyük variasiyalar xəstəliyin forması və ağırlığı ilə, intellektin vəziyyəti ilə, sistematik müalicəvi-korreksiya işinin başlanılma müddəti ilə bilavasitə bağlıdır.

İradi hərəkətlərin, bacarıq və vərdişlərin inkişafı üçün əzələlərin birgə işi vacibdir. Əzələlər həmişə MSS-nin tənzimlədiyi müəyyən sxem üzrə işləyir. Məsələn, normal hərəkət zamanı bel üzərində uzanmış vəziyyətdən oturaq vəziyyətə keçid zamanı başın döş qəfəsinə